*Nizamişünaslıq 12, №1, 2025, səh. 152-159*

https://doi.org/10.59849/3006-2403.2025.1.152

***Səbinə İBRAHİMLİ***
***Filologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Milli Elmlər Akademiyası***
***E-mail: sabinaibrahimli001@gmail.com***
***Orcid: 0009-0008-2243-1828***

# MƏMMƏD SƏİD ORDUBADİ İLK TARİXİ ROMAN MÜƏLLİFİ KİMİ („QILINC VƏ QƏLƏM")

*Açar sözlər:* Məmməd Səid Ordubadi, Nizami Gəncəvi, Fəxrəddin, Məshəti Gəncəvi, Qətibə, Səba, Qutluq İnanc, Vəliəhd, Təliə, Dilşad, Hüsaməddin, Nizaməddin, Toğrul, Atabəy Məhəmməd

**Giriş.** Qələm elm rəmzidir, yəni tarix boyu alimlər öz ixtiralarını, kəşflərini, tapıntılarını qələmlə yazmışlar, peyğəmbərlərə nazil olan müqəddəs kitablar da qələmlə yazılmışdır. M.S.Ordubadi şübhəsiz ki, Azərbaycanın dahi şairi Şeyx Nizaminin qələminin qürdrətini bəyan etmək üçün "qələm"dən bir rəmz kimi istifadə etmişdir. Lakin tarixin məhz qələmlə yazılan bütün mənbələrində qılıncın da qələm qədər insan həyatında mahiyyət daşıdığını ədib poetik şəkildə, fəlsəfi hikmətə əsalanaraq ifadə edir; "Qılınc və qələm".

Ədib bu əsərdə əxlaqi-tərbiyəvi bir sistem yaratmışdır. Əsərin süjeti təmiz və gözəl əxlaq üzərində cilalanmışdır. Əsərin ideyası da əsasən gözəl əxlaqa bağlıdır. Ədib Nizami Gəncəvinin və bir sıra müsbət surətlərin timsalında insan əxlaqının ən parlaq mənzərəsini nümayiş etdirir. M.S.Ordubadi bu romanda Nizami Gəncəvi ilə bağlı hadisələrin bir şair kimi poetik mənzərəsini canlandırır və oxucusuna dahi Nizaminin kimliyinin vizit kartını təqdim edir.

M.S.Ordubadi "Qılınc və qələm" romanında Nizami Gəncəvi dövrününün sanki başdan-başa portretini çəkir və oxucu qarşısında canlı lövhələr yaradır.

**Əsas hissə.** M.S.Ordubadi həmin dövrdə baş verən ziddiyyətli hadisələrdən, "Abbasilər sülələsi"nin azğınlığından, Səlcuq xanədanının süqut etməsindən, Şirvan şahı Əbdülmüzəffərin Azərbycanda farslaşdırma siyasəti aparmasından, Nizami Gəncəvinin həyat və fəaliyyətindən, eyni zamanda xalqın məişətindən və həyatından bəhs edir. M.S.Ordubadi bu əsərdə Azərbaycan xalqının tarix boyu istiqlalı, istiqbalı və azadlığı uğrunda mübarizə aparması qürur hissilə vurğulanır və xalqın qəhrəman oğlu Fəxrəddinin başçılığı ilə işğalçılara qarşı vətəni düşmən tapdağından xilas etməyə qalxan igidlərin zəfər üstündən zəfər qazanması, eyni zamanda xain, satqın Hüsaməddinin Fəxrəddin tərəfindən bir anın içində kəməndə salınması zəngin boyalarla təsvir olunur:

*"Hüsaməddinin atı vuruşan dəstələrin arasından qızmış şir kimi çıxdı. Onun gözləri qarşısını görmürdü. O, ancaq öz qəlbindəkiləri görürdü. Onun qəlbində Qətibənin dodaqları danışır və ondan Fəxrəddinin başını tələb edirdi. Bunun üçün Fəxrəddin kimi şöhrətli bir pəhləvanın qarşısına çıxmaq o qədər də çətin deyildi. O, daima qəlbində Qətibənin səsini dinləyirdi. Çünki o səs Hüsaməddini xoşbəxt bir həyata doğru cəlb edirdi. O, dördminlik bir ordunu itirdiyini və özünün məğlublar cərgəsində durduğunu nəzərə almayaraq atını bir qalib pəhləvan kimi irəli sürürdü. Nəhayət o, Fəxrəddin duran yerə yaxınlaşınca Fəxrəddini gördü, atının cilovunu çəkdi. Bir neçə dəqiqə onlar bir-birinə diqqətlə baxdılar. Nəhayət Fəxrəddin sözə başlayaraq Hüsaməddini məzəmmət etməyə başladı:*

*– Bir ordunun başçısı kimi səni öldürmək mənim üçün ən vacib işlərdən biridir. Lakin sənə qılınc vurmaqdan utanıram, çünki qılıncımın namussuz və həyasız bir adamın qanına*

*batmasını öüzm üçün həqarat hesab edirəm. Alçaqsan, çünki dörd mindən ibarət fars və ərəb qoşununu dalına salıb öz vətənini qarət etməyə və öz vətəndaşlarını qırmağa gəlmisən.*

*Şimali Azərbaycanı talamaq və məhv etmək üçün gələn ordunun içərisində səndən başqa bir nəfər azərbaycanlı olsaydı,mən sənə alçaq deməyə cəsarət etməzdim. Alçaqsan! De görüm sən Nizaminin evində verdiyin əhd və peymanı unutdunmu?! Sən Azərbaycan xalqının rəhbərlərinə qarşı düşmən hərəkətdə bulunmamağa söz verməmişdinmi?*

*De görüm, Araz çayından bura qədər yandırdığın kəndlərin günahı nə idi? İndi isə cəzanı almağa hazır ol!*

*Hüsaməddin cavab verməyə macal tapmadı, çünki Fəxrəddin atını mahmızlayıb onun ətrafına dolaşırdı.*

*Hüsaməddin qılıncını siyirib Fəxrəddinə qarşı atını mahmızladığı zaman Fəxrəddinin kəməndi onun qılıncını qolları ilə bərabər bədəninə sarımışdı"* [8, s.315-316].

Filologiya üzrə fəlsəfə doktoru, dosent Elnarə Qaragözova "Qılınc və qələm" romanını Azərbaycan xalqının əcdadlarına həsr edilmiş bir səlnamə kimi dəyərləndirir və akademik İsa Həbibbəylinin bu roman haqqında dediyi müsbət fikirləri öz məqaləsində göz önünə gətirir:

"*Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi olan Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanı oxucuların bu gün də sevərək oxuduğu əsərlərdəndir. Yarım əsrlik bir müddətdə baş vermiş tarixi hadisələri bədii güzgüdə oxucuya təqdim edən romanın süjetinin zavyazkası Atabəy Şəmsəddin Eldənizin ölümü ilə başlayır, əsərin finalı isə Atabəylər dövlətinin Xarəzmşah Cəlaləddinin tərəfindən süquta uğradılması ilə bitir. Böyük tarixi hadisələrin baş verdiyi bu müddətin bədii xronikasında bir dövlətin ömrü fonunda dövrün insanının – müasir azərbaycanlıların babalarının öz vətəni uğrunda mübarizəsi, vətənin keşməkeşli taleyi izlənilir. Akademik İsa Həbibbəyli yazır: "Məmməd Səid Ordubadi hələ keçən əsrin 30-cu illərində keçmiş Sovet ideologiyasının xalqa soy-kökünü, tarixini unutdurmaq, manqurtlaşdırmaq vəzifələrini dövlət səviyyəsində həyata keçirdiyi bir zamanda "Qılınc və qələm" tarixi romanını yazmaqla Azərbaycanda milli-mədəni özünüdərk proseslərinin tarazlığını qoruyub saxlamağa şərəflə xidmət göstərmişdir"* [6].

Məlumdur ki, Bağdad şəhəri əsrlər boyu xilafətin mərkəzi olmuşdur. Belə ki, Bağdadda başqa-başqa xəlifələrin dövrlərindəki ən görkəmli memarlara inşa etdirdikləri aidələrin sayı-hesabı yoxdur. Bağdadda karvansaraylar, şah və sultan sarayları, minarələrinin başı buluddan nəm çəkən məscidlər, qiraətxanalar, kitabxanalar, mədrəsələr həddindən artıq çoxdur. Məsələ burasındadır ki, Nizami Gəncəvinin dövründə də bu şəhər abidələri, gözəl tiklililərilə dünya üzündə qabqada gedən şəhərlərdən idi. M.S.Ordubadi "Qılınc və qələm" romanının II hissəsində saray əyanı Asəfin vasitəsilə Azərbaycandan gələn nümayəndə heyətini Bağdadın bir sıra abidələri ilə tanış edir, eyni zamanda abbasi xəlifələrindən ən məhşuru Harun ər-Rəşidin insanlığa sığmayan vəhşiliklər etdiyini oxucunun yaddaşına həkk edir:

*"Harun ər-Rəşid xəlifənin sevdiyi iki adam var idi. Onlardan birisi bacısı Əbbasə, o birisi vəzir Cəfər idi. Əbbasə öz vaxtında Şərqin ən məhşur gözəli idi. Harun ər-Rəşid onu ərə verməyə qısqanırdı. O, günün birində Cəfəri yanına çaırıb dedi ki: Mən istəyirən sevdiyim adamların ikisi də birlikdə mənim yanımda olsun. Buna görə də səninlə bacım Əbbasəni camal siğəsi oxutdurub evləndirmək istəyirəm. Lakin sən ona əl vurmamaq üçün mənim başıma and içməlisən.*

*Cəfər Harunun təklifini qəbul edib evləndi. Evlənəndən sonra qəsri tikdirdi. O, daima durduğunuz pəncərədən baxıb Əbbasə ilə söhbət edər və görüş üçün vədələşərdilər. Nəhayət günlərin birində Harun ər-Rəşid xəbər tutur ki, bacısı Cəfərdən iki oğlan doğmuşdur. Buna görə də gecə qulamı Məsruru göndərib, Cəfər namaz qıldığı halda başını kəsdirib meyidini də yandırdı"* [9, s.19].

Harun ər-Rəşidin (Miladi 763-815) nə qədər qəddar insan olduğu haqqında kifayət qədər mənbə var. M.S.Ordubadi isə bunu bədii şəkildə gələcək nəsillərə çatdırmaq üçün

“Qılınc və qələm” romanında oxucu təfəkkirü üçün konkret xeyri olan və hafizəsində həkk olunmalı bədii vasitədən istifadə etmişdir. Asəf adlı bir surətin Azərbaycandan gələn qonaqlara bu barədə məlumat verməsi ədibin əslində qəddarlığa, vəhşiliyə, insanlığa sığmayan vərdişlərə dərin nifrətini bildirir. M.S.Ordubadi tarixidən ensiplopedik məlumata malik bir sənətkar idi, xilafətin tarixini də çox gözəl bilirdi və təbii ki, abbasi xəlifəsi Harun ər- Rəşdin haqqında da geniş məlumata malik idi. Ədib min ildən çox zaman keçməsinə baxmayaraq Harun ər-Rəşidi çox yaxşı tanıyırdı və müsəlmanlar arasında adları “lənətullah” kimi hallanan əməvilərdən sonra xilafət başına gələn abbasi xəlifələrindən tarixdə ən məhşuru Harun ər-Rəşidin baş kəsməyin, qan tökməyin, günahsız insanları qətlə yetirməyin sadəcə bir əyləncə olduğundan da müfəssəl şəkildə xəbərdar idi. Harun ər-Rəşid xəlifəliyi zamanında saysız-hesabsız qan axıtmışdı və vəziri Cəfərin başını kəsdirəndən sonra onun nəslini kəsdirməkdən ötrü tədbirlər görmüş, yüzlərlə insanın uşaqdan böyüyə qədər başını kəsdirmişdi. Vəzir Cəfər-Bərməkinin mənsub olduğu “bərməkilər” adlanan nəsil nümayəndəlirinin bir hissəsi Harun ər-Rəşidin qılıncının altına düşməməkdən ötrü qaçmış və onlardan bir qismi indiki Xızı və Siyəzən bölgəsinə pənah gətirmişdir. Bərməkilər nəsli mənşəcə türk idi, Bu Rəfael Oğuztürk Dağlının 2011-ci ildə nəşr edilmiş “Xızı-Siyəzən bölgəsinin tarixinə dair” (arxeoloji-etnoqrafik tədqiqat) kitabında öz təsdiqini tapmışdır. Lakin Xızı və Siyəzən bölgəsinə axın eləyəndən sonra, ətraf bölgələrin əhalisi (Şabran, Xaçmaz, Qubanın bir sıra kəndləri) tat dilində danışdıqlarına görə zaman-zaman bu dili götürmüşlər. Bərməkilərin böyük bir qismi XIX əsrin axırından iş tapmaqdan ötrü Bakıya axın eləmiş və Bakı camaatı onaları “dağlı” adlandırmışlar. Onu da qeyd edək ki, Azərbaycanın görkəmli dramaturqu Cəfər Cabbarlı da özünün bərməkilərdən olduğunu qeyd etmiş və bərməkilər barəsində müəyyən qədər məlumat vermişdir.

Yeri gəlmişkən bunu da xatırlatmaq lazımdır ki, Azərbaycan xalqının qəhrəman oğlu Babəki (798-838) Harun ər-Rəşidin kiçik oğlu Əlmötəsim (Miladi 806-867) İraqın Samirə şəhərində işgəncələrlə öldürtmüşdür.

M.S.Ordubadinin əsərləri xalq tərəfindən o qədər sevilmişdir ki, oxucuların bir qismi ona təşəkkür məktubu göndərmiş, eyni zamanda əsərləri haqqında öz təəsürratlarını bildirmişlər. “Qılınc və qələm” oxuculara təqdim olunandan sonra M.S.Ordubadiyə bir çox məktublar gəlmişdir. “Qılınc və qələm”i stolüstü kitablarına çevirən kitabsevərlər ədibə roman haqqında öz təəsüratlarını yazmış, əsasən də çox bəyəndiklərini, sevə-sevə oxuduqlarını, hətta ailəvi şəkildə təhlil etdiklərini, bu möhtəşəm əsərdən çox şeylər öyrəndiklərini, eyni zamanda bəzi epizodların onlara qaranlıq qaldığını yazmışlar. Məsələn 1949-cu il 13 martda Bərdə rayonunda pambıq tədarükü məntəqəsinin baş mühasibi Cəfərov Rza M.S.Ordubadiyə belə bir məktub göndərmişdi:

*“Hörmətli Ordubadi! Nizaminin həyat və dövrünə aid yazdığınız tərifəlayiq “Qılınc və qələm” adlı tarixi romanın hər iki hissəsini artıq fəraq və diqqət ilə oxuyub bu gün qurtardıq. Bizim ailədə olan yeddi nəfərdən üç nəfər xırda uşaqlarımızdan başqa altıncı sinifdə oxuyan Tofiq, beşinci sinifdə oxuyan Tofiq və orta təhsilli anaları cazibədar romanları çox sevirlər. Mən bu romanı başlayan günlərdə etdikləri xahişə görə, həmişə evdə və hamının iştirak etdiyi vaxtlarda ucadan oxudum. Beləliklə bu romanı tək mən oxumağıma baxmayaraq, mənimlə bərabər dörd nəfər də oxumuş oldu. Bu gün romanın 2-ci kitabını da qurtarandan sonra aldığımız təəsürat haqqında müzakirə və mübahisələrimiz oldu. Nəticədə dördümüzüdə aydın olmayan və maraqlandığımız aşağıdakı cəhətlərin izahını sizdən xahiş etməyi lazım bildik”* [1].

Bu sözlərdən sonra Cəfərov Rza vəliəhd Əbubəkrin Qutluq İnancın haradan və nə vasitə ilə azad olduğunu, hətta Sultan Toğrulun toy məclisində vəliəhd elan edildiyini soruşur. Bundan əlavə Qutluq İnancın anası Qətibə xanımın qızının əsirlikdən azad olmasına görə

hansı tədbirlər tökdüyünə maraq edir, eyni zamanda gənclik illərində Nizami ilə izdivacı mümkün olmamadığından təsirlənən Qətibə Toğrul Sultanın məclisində zəhər içib özünü öldürən dəqiqələrə kimi ağlına gələn hər planın icrası üçün tədbirlər tikmək qabiliyyətinə malik olduğu halda, oğlu Qutluq İnancın əsirlikdən qurtarması haqqında heç bir tədbirdə olmamasını sual edir. Sonra isə ellər qəhrəmanı Fəxrəddinin harada və nə cür vəfat etdiyi ilə maraqlanır.

M.S.Ordubadiyə orta məktəb şagirdləri də məktublar göndərmişlər. Onlar bu məktublarda ədibin əsərlərinin onların düşüncəsində nə qədər böyük rol oynadığını, eyni zamanda keçmişi öyrənmək üçün geniş bir səlmanə əhəmiyyəti daşıdığını qeyd etmişlər. Bu məktublardan birini M.Qorki adına 1 №li orta məktəbin X sinif şagirdləri göndərmişlər. Onlar M.S.Ordubadinin əsərlərinin onların psixologiyasına, tərbiyəsinə, dünyayabaxışına, zehniyyətinə, təffəkkürünə nə qədər müsbət təsir göstərdiklərini və ədibə bir ata məhəbbəti bəslədiklərini qürur hissilə qeyd edirdilər:

*"Hörmətli və qocaman ədibimiz M.S.Ordubadiyə komsomol salamı! Hörmətli ədib! Biz M.Qorki adına 1 №-li qız orta məktəbinin X sinif şagirdləri sizi qəlbən, bir ata məhəbbətilə servirik. Hörmətli ədib, biz sizin sənətkarlığınıza doğrudan da pərəstiş edirik.*

*Sizin sənətinizdə olan məharətiniz, yüksək keyfiyyətli, bir-birinin ardınca müvəffəqiyyət qazanan əsərləriniz bizi cəlb etmişdir. Sizin istər tarixi, istərsə də ədəbi-bədii əsərləriniz oxucuları daima düşünməyə, keçmişə bir nəzər salmağa vadar edir.*

*Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyat və faliyyətinə həsr etmiş olduğunuz "Qılınc və qələm" əsəri keçmiş Gəncəni, Gəncədə hökmranlıq edən atabəyləri, sevimli şairimiz, daha doğrusu böyük söz ustası Nizami Gəncəvinin uşaqlığını, gəncliyini və nəhayət qocalığını bizim gözümüz qarşısında canlandırır"* [5].

Məktubun arxasında qız şagirdlər yenə M.S.Ordubadinin əsərlərinin sevə-sevə oxunmasından, "Dumanlı Təbriz"dəki, "Gizli Bakı"dakı, "Döyüşən şəhər"dəki qadın surətlərinin sevilməsindən, bu surətlərin heç zaman yaddaşlardan silinməyəcəyindən və ədibin başqa məziyyətlərindən söz açırlar.

Göründüyü kimi M.S.Ordubadinin mütərəqqi ideyalarla qələmə aldığı əsərləri xalqın həyatında, məişətində mühüm rol oynamışdı və saya gəlməyən oxucu kütlələri toplamışdı. Ədibin romanlarını stolüstü kitablara çevirən insanlar yuxarıda qeyd olunduğu kimi bu romanlar üzərində təhlillər aparır və onlardan aldıqları təəsüratı bölüşdürürdülər. Ədibin bütün əsərləri sevilirdi, lakin romanlarının yeri bir başqa idi, çünki oxucular bu romanlardan tarixi öyrənir, onlara qaranlıq olan bir çox sirrlərdən agah olur, əcdadlarının kim olduğunu başa düşür, eyni zamanda özlərini tapırdılar.

"Qılınc və qələm" romanının isə başqa bir çəkisi var, azərbaycançılıq ideyası, vətənə intəhasız dərəcədə bağlılıq və nəhayət Azərbaycan xalqının tarixinin, mədəniyyətinin həyatın özü qədər qədimliyi, Azərbaycan xalqının dünən-bu gün deyil, min illər öncə bir xalq kimi formalaşması əsərin qayəsini və mayəsini təşkil edir.

M.S.Ordubadi "Qılınc və qələm" əsərində bitgin və dolğun xarakterlər yaratmışdır ki, bu xarakterlərdən biri və ən təhlükəlisi Atabəy Məhəmmədin arvadı Qətibədir.

Qətibə çox dəhşətli bir qadındır, fənalıqlar simvoludur və məhşur fransız yazıçısı Aleksandr Dümanın "Üç muşketyor" romanındakı Miledi obrazı ilə çox uyğun gəlir. "Üç muşketyor"dakı Miledi nə qədər riyakar, hiyləgərdisə və kimsəni acımadan öldürürsə, Qətibə də daş qəlbi ilə hər kəsi zəhərlədib öldürə bilər və belə ki, hətta doğma bacısı Təliəni də cinayət etməyə, canından çox sevdiyi vəliəhdi zəhərləməyə vadar edir. Qətibə surəti roman boyu, xüsusilə romanın II hissəsində əməlisaleh insanların başı üstündə bir kabus kimi dolaşır və fikri, düşüncəsi yalnız öldürmək, qətlə yetirmək, zəhərləmək olur. Əsərdəki epizodlardan birində o, məşuqu ordu sərkərdəsi Hüsaməddinə, Nizamini, Fəxrəddini, Atabəyin oğlanarını öldürməyi tapşırır. Lakin bir vaxtlar əsərin qəhrəmalarından biri

Fəxrəddinlə eşq məcaraları yaşayan Səba xanım Qətibənin riyakarlığını Fəxrəddinə xəbər verir:

*“Səba xanım artıq Fəxrəddinin məhv edilməsi haqqında deyil, yaşaması barəsində düşünürdü. O, bu düşüncələrin təsirində olaraq başını qaldırıb Fəxrəddinin üzünə baxdı və utana-utana dedi:*

*-Sözüm sözdür. Mənim sevgilim, sözlərindən bütün gənclik xatirələrim canlandı. Lakin səndən bir ricam vardır. Özünü Qətibədən gözlə! O, səni məhv etmək istəyir. Çünki o, atasının öldürülməsi səbəbini səndə və Nizamidə görür. Hüsaməddin bu barədə Qətibədən böyük tapşırıq almışdır. Hüsaməddin səni də, Atabəyin oğlanlarını da, şair Nizamini də öldürməyi öz öhdəsinə götürmüşdür”* [9, s.54].

“Qılınc və qələm”in II hissəsində başqa bir epizodda Qətibə ögey oğlu vəliəhdi zəhərləmək üçün öz doğma bacısı Təliəni sövq edir. Lakin Təliə vəliəhdi sevdiyi üçün bu riyakarlığı yerinə yetirə bilmir və zəhəri özü içmək istəyir, bu zaman vəliəhd xəbər tutur və Təliənin özünü zəhərləməyə imkan vermir.

“Qılınc və qələm” əsərində Nizami Gəncəvidən və el qəhrəmanı Fəxrəddindən başqa Məhsəti Gəncəvi, Xəqani, Atabəy Məhəmməd, Qızıl Arslan, Toğrul və s. kimi tarixi şəxsiyyətlər, eyni zamanda Nizaməddin, Hüsaməddin, Qutluq İnanc, Qətibə, Səba, Dilşad, Təliə və s. kimi müsbət-mənfi surətlər yer almışlar.

“Qılınc və qələm” tarixi bir risalə kimi dünya ədəbiyyat tarixində yer alacaq bir əsərdir və zaman keçəndən sonra bu öz təsdiqini tapacaqdır. Təsadüfü deyil ki, artıq türkiyəli qardaşlarımız əsəri oxumağa və böyük sevinc hissilə təəsüratlarını bölüşdürməyə başlayıblar:

*“Məmməd Səid Ordubadinin bu qiymətli əsəri – “Qılınc və Qələm” romanı Mədəniyyət Nazirliyinin dəstəyi və “Zengin Yayıncılık” nəşriyyatının təşəbbüsü ilə həyata keçirilən “Azərbaycan Kitabının Dünyaya Tanıdılması” layihəsi çərçivəsində cari ilin iyun ayında 2 cilddə çap edilərək, Nizami Gəncəvi və onun yaşadığı dövrü öyrənmək üçün Türkiyəli oxucuların ixtiyarına verilib”* [7].

Əbülqasim Firdovsi haqqında əsasən türk xalqlarına düşmən münasibət bəsləyən şərqşünaslar təhlillər və tədqiqlər aparmış, Firdovsini müsəlman Şərqinin ən böyük mütəffəkkiri kimi qələmə vermişlər. Çünki Firdovsi uydurma fars qəhrəmanlarının guya türkləri məğlub etdiyini uydurur. M.S.Ordubadi isə öz növbəsində Firdovsinin tarixi gerçəklərə deyil, miflərə, əsatirlərə əsaslandığını qeyd edir:

*“Firdovsi din və məfkurə cəhətcə olduqca mütərəddid və müəmma bir şəxsiyyətdir. O, islamdır. Lakin onda dinçiliyə heç bir təəssüb yoxdur. Onun sərlərində başqa fars şairlərndə oldğu kimi daşıdığı dinə ehtiram və məhəbbər nəzərə çarpmır. O, möbədilərdən hər nə eşitmiş, islamın zərdüştlük dünyasında yaratdığı dəhşətləri necə oxumuş, ərəbin qədim İran mədəniyyətini yıxdığı haqqındakı hadisələri ağızlardan necə almışsa, onu həqiqi bir iranlı, hətta zərdüşt olan bir iranlı kimi yazmışdır. Bundan da əlavə o özünə din gətirmiş ərəbləri söydüyü və nifrətlərlə yad etdiyi bir zamanda əski İran dini olan zərdüştliyə qarşı heç bir hucumda bulunmayır, hətta o bir neçə adətləri atdıqdan sonra zərdüşt dininin adətlərinə sitayiş etməkdə çəkinməyir. Bunun üçün də iki dinin arasında mütərəddi duran və iki dinin adətlərini daşıyan Firdovsi, eyni zamanda İranın tarixi qəhrəmanlarına fövqəladəlik vermək istəyən vətənçi Firdovsi mifoloji təsirdən çıxmaq deyil, ona daha da möhkəm yapışmış, onun ətrafına qədər getmişdir”* [2].

Bundan əlavə M.S.Ordubadi bir sıra sübutlar gətirərək Nizami Gəncəvinin Firdovsidən qat-qat üstün olduğunu bəyan etmişdir:

*“Böyük Nizami öz “İskəndərnamə”sini yazdığı zaman nə Tus şairi Əbülqasım Firdovsinin “Şahnaməsi”ndən, nə də ustad Əsədinin “Gərşaspnamə”də işlətdikləri mövzulardan istifad etmişdir. O, yalnız öz orijinal mövzularını yaratmaqda müvəffəqiyyət*

*qazanmışdır. Böyük Firdovsinin dar bir məhəlləçilik çərçivəsindı yazdığı əsəri ancaq şeir sənəti sayəsində Nizami qarşısında öz mövqeyini müdafiə edə bilmişdir"* [4].

M.S.Ordubadinin Nizami Gəncəvinin Firdovsidən üstünlüyü haqqında qələmə aldığı fikirlər, Məmməd Əmin Rəsulzadənin Nizami Gəncəvi haqqında yaratdığı monoqrafiyada Firdovsinin bir fars şovinsi kimi vurğulaması və Nizami Gəncəvinin isə farslıqdan və atəşpərəstlikdən uzaq olması, eyni zamanda Firdovsinin uydurmalarını rədd etməsi ilə üst-üstə düşür.

Nizamişünas alim, filologiya elmləri doktoru, professor Siraccəddin Hacı buna nəfis şəkildə bir aydınlıq gətirir:

*"Firdovsi ilə Nizami arasında "hiss başqalığı" var, Firdovsi farsların İskəndərə məğlubiyyətini qəbul edə bilmir, vəziyyətdən çıxmaq üçün İskəndərin damarlarında fars qanı axdığını söyləyir (rəvayət uydurur), Nizami bu uydurmanı rədd edir, İskəndərin zəfərinin səbəbini onun imanında, düşüncəsində, dövlət idarə sistemində axtarır. Nizaminin farspərəstlikdən uzaq olmasının açıq dəlillərindən biri də atəşpərəstliyə düşmən olmasıdır, o, məcusiliyi alçaqlıq sayır, onun zərərindən danışır, İskəndəri atəşpərəstlərin düşməni kimi təqdim edir, "dünyanı məcusilikdən təmizlədiyini" xüsusi qeyd edir. Alim Nizaminin atəşpərəstliyə düşmən olmasının səbəbini bu sözlərlə açıqlayır: "...Sözün həqiqi mənasında Nizamidə farslıq duyğusu yoxdur. O, bütün duyğu və şüuru ilə müsəlmandır, tək Allaha inanır. Təkallahlılıq mövqeyindən də o, hər cür ikilik və çoxluğu rədd edən vəhdaniyyətçidir, müvəhhiddir, Allahın təkliyinə inanır, farsca yazsa da, duyğu və şüuru farslıqdan uzaqdır, bu uzaqlığı onun zamanında olduqca qüvvətli olmuş ismailiyyə məzhəbinə qarşı gizlətmədiyi düşmənçilik və nifrəti də göstərməkdədir..."* [3].

**Nəticə.** "Qılınc və qələm"i mütaliə edərkən biz tarixin səhifələrini aramırıq, tarix özü rahat bir şəkildə gəlib bzim qarşımızda durur və biz tarixdən nə lazımdısa öyrənərək yaddaşımıza hopdururuq. M.S.Ordubadini tədqiqatçılar tarix alimi adlandırırlar, lakin o həm də tarix müəllifidir, həm də oxucularına təmənnasız tarixlər öyrədən mütərəqqi bir ziyalıdır. Ədib yaşadığı bütün quruluşların ruhunu duymuş, yaratdığı möhtəşəm əsərləri quruluşların abi-həvasi şəraitində yaratmışdır, lakin bununla belə ən vacib tarixi epizodları böyük sənətkarlıqla əsərlərinə daxil etmiş və məhz bu səbəbdən heyrətamiz dərəcədə oxucu sevgisi qazanmışdır. "Qılınc və qələm"i isə ədibin şah əsəri adlandırsaq yəqin ki, yanılmarıq, çünki bu gözəlliklərlə və özəlliklərlə olduqca zəngin əsər indinin özündə də yüz minlərlə insanın stolüstü kitabına çevrilmişdir və yəqin ki, hələ çox əsrlər çevriləcəkdir.

Nizami Gəncəvinin ədəbi-bədii irsini dəqiqliklə öyrənən M.S.Ordubadi yuxarıda qeyd olunduğu kimi onun haqqında əhatəli məqalələr yazmış və sadəcə bu məqalələrlə kifayətlənməyib dünya kassiklərinin ən güclü romanları ilə müqayisə edilə bilən, hər sətiri belə qızıl kəlmələrlə nəqşlənmiş "Qılınc və qələm" romanını qələmə almışdır.

## ƏDƏBİYYAT

1. Cəfərov Rzadan Məmməd Səid Ordubadiyə məktub // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 14, s.v. 624.
2. Firdovsidə mifaloji təsirlər // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 14, s.v. 427.
3. Hacı, S. Nizami Gəncəvinin milli və ədəbi kimliyinə Rəsulzadə baxışı // 525-ci qəzet. – 2017, 30 mart. – s.6. / URL: https://www.anl.az/down/meqale/525/2017/mart/534851.htm
4. XII əsrdə Azərbaycan ədəbiyyatı və onun Şərq klassik ədəbiyyatına təsiri // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 14, s.v. 420.
5. Kirovabad şəhəri Nizami rayonu M.Qorki adına 1 №-li qız məktəbinin X sinif şagirdləri // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 14, s.v.598.

6. Qaragözova, E. Ordubadinin “Qılınc və qələm”i: tarixi və bədii gerçəklik // 525-ci qəzet. – 2022, 22 mart. / URL: https://literature.az/?page=117720&newsId=117720&lang=aze
7. Məmməd Səid Ordubadinin “Qılınc və Qələm” romanı Türkiyədə nəşr olunub / URL: https://sia.az/az/news/culture/687065.html
8. Ordubadi, M.S. Qılınc və qələm / M.S.Ordubadi. – Bakı: Şərq-Qərb, – 2005. – h.1. – 344 s.
9. Ordubadi, M.S. Qılınc və qələm / M.S.Ordubadi. – Bakı: Şəqr-Qərb, – 2005. – h.2. – 416 s.

***Сабина ИБРАГИМЛИ***

## МАМЕД САИД ОРДУБАДИ КАК ПЕРВЫЙ АВТОР ИСТОРИЧЕСКОГО РОМАНА («МЕЧ И ПЕРО»)

### *РЕЗЮМЕ*

*Ключевые слова:* Мамед Саид Ордубади, Низами Гянджеви, Фахреддин, Мешати Гянджеви, Гатибе, Саба, Кутлуг Инандж, Валиахд, Талия, Дильшад, Хусамеддин, Низамеддин, Тогрул, Атабек Махаммад

Создание образа исторических личностей, ставших знаковыми в истории и национальной памяти народа, в том числе поэтов, прославившихся своей мудростью на весь мир, – очень ответственная и сложная задача. Для этого недостаточно знать историю того периода и изучать во всех подробностях события, происходившие в тот период. Художник, создающий исторический роман, должен создать художественный образ истории, обогатить произведение драматическими сценами и в то же время создать яркие образы исторических личностей. Мамед Саид Ордубади – художник, который в своих романах открывает читателям страницы истории и художественно помещает в их память ряд исторических событий. Низами Гянджеви – гений, пользующийся большой любовью народа. Однако, наблюдая образ этого гениального поэта на страницах прекрасно написанного романа, волнуясь вместе с ним в захватывающих сценах, радуясь вместе с ним в радостных эпизодах, скорбя и грустя вместе с ним, у читателя создается впечатление, будто он Он действительно видел гениального поэта, разговаривал с ним и чувствовал его присутствие. Прислушивался к его мудрым советам, был свидетелем его любви ко всему человечеству и своими глазами видел жемчужины его непревзойденного творчества.

М.С.Ордубади является создателем жанра романа в Азербайджане и воплотил в своем историческом романе «Меч и перо» яркий образ Низами Гянджеви, не допустив ни одной ошибки. В то же время в этом романе он описал противоречивые и бурные события того времени и профессионально создал характеры положительных и отрицательных персонажей романа.

***Sabina IBRAHIMLI***

**MAMMAD SAID ORDUBADI AS THE AUTHOR OF THE FIRST HISTORICAL NOVEL ("SWORD AND PEN")**
***SUMMARY***

*Key words:* Mammad Said Ordubadi, Nizami Ganjavi, Fakhraddin, Meshati Ganjavi, Qatibe, Saba, Qutluq Inanj, Valiyehd, Talia, Dilshad, Husameddin, Nizameddin, Togrul, Atabey Mahammad

It is a very responsible and difficult task to create the image of historical figures, including poets who have resonated with the whole world with their wisdom, in the history and national memory of the people. For this, it is not enough to know the history of that period, to study the events that happened at that time in all their details. At this time, the artist who created the historical novel should create an artistic image of history, enrich the work with dramatic scenes, and at the same time create a bright copy of historical figures. Mammad Said Ordubadi is already an artist who opens historical pages to his readers in his novels and artistically places a number of historical events in his memory. Nizami Ganjavi is a genius who is loved by the people. However, watching the image of this genius poet on the pages of a perfectly written novel, being excited with him in exciting scenes, rejoicing with him in happy episodes, grieving with him in happy episodes, creates such an impression in the reader that it is as if he has really seen the genius poet, talked with him, listened to his wise recommendations, witnessed his love for the entire human race, and saw the gems of his incomparable creativity with his own eyes.

M.S.Ordubadi is the creator of the novel genre in Azerbaijan and created a bright copy of Nizami Ganjavi in his historical novel "Sword and Pen" without making any mistakes. At the same time, in that novel, he described the contradictory and turbulent events of the time and professionally created the character of the positive and negative images in the novel.

***Daxil oldu: 18.05.2025-ci il***